# Şamaxıda akademik Zərifə Əliyevanın 99 illiyi münasibətilə tədbir keçirilib






***Şamaxı Müalicə Diaqnostika Mərkəzində rayon ictimaiyyətinin və səhiyyə işçilərinin iştirakı ilə görkəmli oftalmoloq-alim, Əməkdar elm xadimi, akademik Zərifə xanım Əliyevanın anadan olmasının 99-cu ildönümü münasibətilə tədbir keçirilib.***

Tədbiri giriş sözü ilə açan rayon mərkəzi xəstəxanası publik hüquqi şəxsin direktoru Emin Hüseyn görkəmli alimin həyat və fəaliyyəti barədə məlumat verib. Natiq Zərifə Əliyevanın respublikamızda tibb elminin inkişafına mühüm töhfələr verərək oftalmologiyanın aktual problemlərinə dair tədqiqatları ilə nəinki keçmiş sovetlər məkanında, eləcə də, dünya miqyasında böyük şöhrət qazandığını vurğulayıb.

Mərkəzi Xəstəxananın həkimləri Ədalət Həmidov və İslam Ağayev Zərifə Əliyevanın zəngin elmi irsindən, oftalmologiyanın müxtəlif sahələri üzrə apardığı tədqiqatlardan, qazandığı nailiyyətlərdən geniş söhbət açıblar. Qeyd olunub ki, akademikin elmi fəaliyyətinin nəticələri 150-dən artıq əsərdə, 10 monoqrafiyada, həkimlər üçün dərs vəsaitlərində və sənayenin müxtəlif sahələrində göz zədələrinin profilaktikasına dair metodiki tövsiyələrdə öz əksini tapır.

Tədbirdə çıxış edən Şamaxı Rayon İcra Hakimiyyətinin başçısı Tahir Məmmədov görkəmli alim və dövlət xadimi Zərifə xanım Əliyevanın həyat və yaradıcılığından, eləcə də ictimai fəaliyyətindən geniş söhbət açaraq ən ülvi və nəcib dəyərləri özündə birləşdirən akademikin işıqlı xatirəsinin bundan sonra da gələcək nəsillər tərəfindən minnətdarlıq və ehtiramla yad ediləcəyini bildirib.

Tədbirin sonunda Zərifə xanım Əliyevanın həyat və fəaliyyətində həsr olunmuş film nümayiş etdirilib.

***İlqar HƏSƏNOV,***
***"Xalq qəzeti"nin***
***bölgə müxbiri***